# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

*Qüvvət elmdədir...*

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 32 (1429) ❖ Cümə, 11 oktyabr 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Pre-COP29 tədbirinin iştirakçılarına

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 10-da Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransının (Pre-COP29) iştirakçılarına müraciət ünvanlayıb.***

***Müraciətin mətnini təqdim edirik:***

Hörmətli nazirlər,

Xanımlar və cənablar,

Mən sizi Bakıda keçirilən Pre-COP29 tədbirində salamlayıram.

İqlim dəyişmələri bütün qitələrin ölkələrinə təsir edir, lakin inkişaf etməkdə olan kiçik ada dövlətləri bu təsirlərə daha həssasdır. İqlim dəyişmələri bütün dünyada insanların yaşayışına mənfi təsir göstərir və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində tərəqqiyə mane olur.

Burada Azərbaycan da istisna deyil. Biz hər il çaylarımızda suyun səviyyəsinin azaldığını, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünü görürük. Azərbaycan su qıtlığı problemi ilə də üzləşir.

Azərbaycan bu təhdidlərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır. Biz milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq. Azərbaycan 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib.

Zəngin külək və günəş enerjisi potensialımız bizə bərpa olunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. "Yaşıl enerji" zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpa olunan enerji mənbələrinə malikdir.

Azərbaycan, həmçinin neft və qaz hasilatından əldə etdiyi gəlirləri yaşıl enerjiyə yatırır. Bu, açıq şəkildə göstərir ki, qazıntı enerji növləri ilə zəngin olmağımız yaşıl gündəliyi təşviq etmək istiqamətində addımlarımıza mane olmur.

Qlobal istixana qazı emissiyalarında payının cəmi 0,1 faiz təşkil etdiyi Azərbaycan nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini nümayiş etdirir.

Qlobal iqlim fəaliyyətinə dəstək vermək əzmimiz COP29 tədbirinə ev sahibliyi etmək üçün namizədliyimizin irəli sürülməsinə gətirib çıxardı. Mən Azərbaycana verilən yekdil dəstəyi beynəlxalq ictimaiyyətin ölkəmizə olan inamının təzahürü hesab edirəm. Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək.

İxtiyarımızda bir ildən az vaxtın olmasına baxmayaraq, biz tam məsuliyyəti öz üzərimizə götürərək nəzərəçarpan nailiyyətlər əldə etdik. Qadınların, parlament üzvlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunduğu inklüziv COP29 Təşkilat Komitəsi Bakı COP-una hərtərəfli hazırlıq işlərinin görülməsini təmin edir.

COP29 Sədrliyi "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq bütün maraqlı tərəflərlə konstruktiv ruhda və şəffaf şəkildə əməkdaşlıq edir, çoxsaylı səfərlər həyata keçirir və narahatlıqlarını nəzərə almaq üçün həmını dinləyir.

Biz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritet olaraq müəyyənləşdirmişik. Azərbaycan bu dövlətlərə kömək etməyi özünə mənəvi borc hesab edir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstək göstərir.

Göstərilən səylərin davamlılığını təmin etmək məqsədilə müvafiq olaraq COP28, COP29 və COP30-un sədrləri qismində BƏƏ, Azərbaycan və Braziliya tərəfindən "İqlim Troykası" təsis edildi.

Azərbaycan sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibarət iddialı Fəaliyyət Gündəliyi hazırlayıb. Mövcud olan geosiyasi gərginlik fonunda "COP atəşkəsi çağırışı"nın aktuallığı daha da artır.

Qeyd etmək lazımdır ki, bu ilin sentyabrında Bakıda İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyətə başlaması istiqamətində mühüm irəliləyiş əldə olunub.

Bununla belə, qarşımızda duran əsas vəzifə inkişaf etməkdə olan, ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına cavab verən ədalətli və iddialı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasından ibarətdir. Yeni maliyyə məqsədi əhəmiyyətli artım tələb edir.

COP29-un sədri qismində nə Azərbaycan, nə də digər dövlət başqalarının adından qərar qəbul edə bilməz. Bizim rolumuz danışıqlara dəstək vermək üçün platforma təmin etməkdən ibarətdir və inanırıq ki, bu rolumuzu qərəzsiz şəkildə yerinə yetirməkdəyik. Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş innovativ "Şamaxı məsləhətləşmələri" iqlim üzrə danışıqların gələcək inkişafı üçün səmərəli qeyri-rəsmi format rolunu oynaya bilər.

COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, mən sizi başəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox zərər vurduğunu müəyyənləşdirmək üçün vaxt itirməyə haqqımız yoxdur.

Dəfələrlə vurğulandığı kimi, Bakı COP-u multilateralizm üçün həlledici sınaq olacaq. Beynəlxalq ictimaiyyətin uğursuzluğa düçar olmağa ixtiyarı yoxdur və Yeni Kollektiv Kəmiyyət Hədəfi ilə bağlı razılaşma əldə olunmalıdır. Mən COP29-da bizim ümumi uğurumuz kimi tarixə düşəcək tarixi razılaşmanın - "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm.

Burada bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək məqsədi daşıyan qarayaxma kampaniyasına toxunmaya bilmərəm. Bu cəhdlər əbəsdir və bizi iqlim dəyişmələrinin mənfi təsirləri ilə mübarizə aparmaq üçün nəcib missiyamızı həyata keçirməkdən çəkindirə bilməz.

Mən yaşıl dünya naminə həmrəylik ruhunda birgə fəaliyyət göstərmək üçün noyabrın 12-dən 13-dək Bakıda keçiriləcək Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində dövlət və hökumət başçılarını salamlamağa şad olaram.

Sonda sizə gələn ay Bakıda uğurlu nəticələrin əldə olunması ilə nəticələnəcək səmərəli müzakirələrin keçirilməsini arzulayıram.

Sağ olun.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 oktyabr 2024-cü il*

# Azərbaycan-Çin elmi əlaqələri yeni

## *Yeniləşən Akademiyanın beynəlxalq*

## AMEA Rəyasət Heyətində Honkonq Kore Akademiyasının nümayəndələri ilə görüş

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının Honkonq Kore Akademiyasının nümayəndələri ilə görüşüb.**



Görüşdə Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini professor Raymond J. Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng iştirak ediblər.

Görüşdə çıxış edən akademik İsa Həbibbəyli Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra Ulu Öndər Heydər Əliyev tərəfindən Çinlə möhkəm təmələrə söykənən ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulduğunu söyləyib. Qeyd edib ki, Prezident İlham Əliyev də Çinlə əlaqələrə xüsusi diqqət yetirir və dövlət başçıları səviyyəsində imzalanan rəsmi sənədlərlə Azərbaycanla Çin "Bir kəmər, bir yol" layihəsi, eləcə də Şərq-Qərb və Şimal-Cənub kimi beynəlxalq nəqliyyat marşrutları çərçivəsində sıx əməkdaşlıq edir.

Dövlət başçılarının açdığı geniş əməkdaşlıq imkanlarının elmi müstəvidə də öz müsbət təsirini göstərdiyini deyən akademik İsa Həbibbəyli Milli Elmlər Akademiyasının Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Pekin Xarici Dillər Universiteti və Hebey Pedaqoji Universiteti ilə sıx əməkdaşlıq etdiyini, birgə elmi layihələrin həyata keçirildiyini söyləyib. Həmçinin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Mədəniyyət Mərkəzinin fəaliyyət göstərdiyini, Çin ədəbiyyatının, mədəniyyətinin tədqiq olunduğunu vurğulayıb.

AMEA rəhbəri bu günlərdə "İpək yolu ruhuyla Çin-Azərbaycan münasibətlərini möhkəmləndir" devizi ilə Pekində keçirilən 1-ci Çin azərbaycanşünaslıq beynəlxalq elmi konfransını ölkələrimiz üçün tarixi elmi-mədəni hadisə kimi dəyərləndirib.

Qonaqların ölkəmizə səfərini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli cari ilin iyun ayında Çin Xalq Respublikasına səfəri çərçivəsində Honkonq Kore Akademiyasının Cuci Filialında qarşılıqlı elmi əməkdaşlıq əlaqələrinin müzakirə edildiyini xatırladıb.

Akademik İsa Həbibbəyli Honkonq Kore Akademiyası ilə birgə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib və maraq doğuran məsələlər barədə təkliflərini səsləndirib.

Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei isə çıxışında Azərbaycanda olmaqdan məmnunluğunu dilə gətirib, səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Çin-Azərbaycan elmi əlaqələrinin inkişaf etdirilməsi istiqamətində yaxından iştirak edəcəklərini diqqətə çatdırıb.

Professor Li Lei və professor Raymond J. Wu da öz növbəsində AMEA prezidenti ilə Çində keçirilən görüşü xatırladaraq qarşılıqlı elmi əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduqlarını dilə gətirib, bir sıra təkliflərlə çıxış ediblər.

Daha sonra qonaqlara hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Görüşdən sonra çinli alimlər AMEA Rəyasət Heyətinin tarixi binasını gəzib, Bakının tarixi-mədəni yerləri ilə tanış olublar.

## Çinin Honkonq Kore Akademiyasının nümayəndələri Ulu Öndərin məzarını və Şəhidlər Xiyabanını ziyarət ediblər



**Çin Xalq Respublikasının Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini prof. Raymond J. Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng ölkəmizdə səfərdə olublar.**

Səfər çərçivəsində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və çinli alimlər Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə tər gül dəstələri qoyub, ruhu qarşısında baş əyiblər.

Ümummilli Liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Daha sonra qonaqlar Şəhidlər Xiyabanını ziyarət edib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsini ehtiramla anıblar.

## Hərbi Qənimətlər Parkını və Qobustan Milli Tarix-Bədii Qoruğunu ziyarət

**Ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini professor Raymond J. Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng AMEA əməkdaşları ilə birlikdə Hərbi Qənimətlər Parkını ziyarət ediblər.**




Çin alimlərə Prezident İlham Əliyevin Ali Baş Komandanlığında Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər barədə ətraflı məlumat verilib, qonaqlar ermənı işğalçılarından qənimət götürülən bir çox hərbi texnika və sursatlarla yaxından tanış olublar.

Qonaqlar daha sonra AMEA əməkdaşlarının müşayiətilə Qobustan Milli Tarix-Bədii Qoruğuna səfər ediblər. Burada çinli alimlərə məlumat verilib ki, Qoruqda 6 mindən artıq qayaüstü rəsm və müxtəlif fondlarda 100 mindən artıq arxeoloji material qorunur.

Həmçinin diqqətə çatdırılıb ki, "Qobustan" Dövlət Tarix-Bədii Qoruğu 2007-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

Çinli alimlər Azərbaycanın qədim tarixi, maddi mədəniyyət nümunələri, qayaüstü rəsmləri və arxeoloji tapıntıları ilə əyani tanış olaraq səfərdən məmnun qaldıqlarını bildirib, xatirə şəkli çəkdiriblər.

## İnstitutda aparılan tədqiqatlarla tanışlıq

**Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunda Çin Xalq Respublikasının Honkonq Kore Akademiyasının nümayəndələri ilə görüş təşkil olunub.**

Məqsəd iki ölkə arasında elmi əlaqələrin inkişafına dair fikir mübadiləsi aparmaq olub.

Görüşdə Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini professor Raymond J. Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng iştirak ediblər.

Tərəflər təmsil etdikləri qurumların fəaliyyəti, beynəlxalq əlaqələri, aparılan tədqiqatlar, əldə olunan ən son nəticələr haqqında qarşılıqlı məlumat veriblər. İnstitutun baş direktoru akademik Arif Həşimov elmi müəssisədə görülən fundamental işlərdən, həmçinin laboratoriyalarda aparılan tədqiqat işlərindən bəhs edib. O bildirib ki, Fizika İnstitutu dünyanın bir sıra aparıcı elmi müəssisələri ilə əməkdaşlıq edir, əldə olunan elmi nəticələr yüksək impakt faktorlu jurnallarda dərc olunur.



Görüş çərçivəsində Fizika İnstitutunun əməkdaşı, hazırda Çin Elektron Elm və Texnologiya Universitetinin Fizika Məktəbinin fizika ixtisası üzrə doktorant tələbəsi Ülkər Səmədova ilə videobağlantı yaradılıb. O, burada apardığı tədqiqat istiqamətləri haqqında danışıb.

Görüşün sonunda çinli qonaqlar laboratoriyalar ilə tanış olublar, institutun alimləri quraşdırılan cihazlar, aparılan tədqiqatlar, elmi nailiyyətlər haqqında qonaqlara ətraflı məlumat veriblər.

# inkişaf mərhələsinə qədəm qoyur

## *elmi əməkdaşlığının növbəti səhifəsi*

# AMEA ilə Honkonq Kore Akademiyası arasında anlaşma memorandumu imzalanıb





**AMEA Rəyasət Heyətinin Azərbaycan Milli Elmlər Akademiyası və Çin Xalq Respublikasının Honkonq Kore Akademiyası arasında elmi əməkdaşlığa həsr olunmuş iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları, eləcə də Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini professor Raymond J. Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng iştirak ediblər.

İclası giriş sözü ilə açan akademik İsa Həbibbəyli Azərbaycan-Çin əlaqələrinin möhkəm təməllərinin Ümummilli Lider Heydər Əliyevin 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi dövlət səfəri ilə atıldığını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev də Azərbaycan-Çin əlaqələrinin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsini dəstəkləyir, Çin də öz növbəsində Azərbaycanın beynəlxalq nəqliyyat layihələrinə dəstək verir.

Bu gün Azərbaycanla Çin arasında elmi əlaqələrin də inkişaf etdiyini deyən akademik İsa Həbibbəyli AMEA-nın Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Pekin Xarici Dillər Universiteti və Hebey Pedaqoji Universiteti ilə sıx əməkdaşlıq etdiyini deyib. Akademiya rəhbəri hazırda AMEA ilə Pekin Xarici Dillər Universiteti, Hebey Pedaqoji Universiteti və Hebey Sosial Elmlər Akademiyasının "Xəzərdən Çin səddinədək" mövzusunda birgə elmi layihənin icra edildiyini, bu istiqamətdə ilk elmi konfransın cari ilin iyun ayında Çində keçirildiyini, növbəti beynəlxalq tədbirin isə 2025-ci ildə ölkəmizdə təşkil olunacağını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli, həmçinin Pekin Xarici Dillər Universitetində "Azərbaycan dili" ixtisasının tədris olunduğunu, AMEA-nın universiteti azərbaycandilli elmi-ədəbi, tarixi və digər əlavə ədəbiyyatla təmin etdiyini bildirib.

Hazırda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzinin fəaliyyət göstərdiyini qeyd edən akademik İsa Həbibbəyli Honkonq Kore Akademiyası nəzdində də Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasının əhəmiyyətini vurğulayıb. Akademik İsa Həbibbəyli, o cümlədən AMEA-nın Şərqşünaslıq, Fəlsəfə və Sosiologiya institutlarında da Çinə dair geniş elmi tədqiqatların aparıldığını diqqətə çatdırıb.

AMEA rəhbəri Honkonq Kore Akademiyasının alimlərinin ölkəmizə səfəri və bu gün imzalanacaq memorandumun Azərbaycan-Çin münasibətlərinin, eləcə də elmi-mədəni əlaqələrin inkişafına öz töhfəsini verəcəyini bildirib.

Sonra çıxış edən Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei qonaqpərvərliyə görə akademik İsa Həbibbəyliyə dərin minnətdarlığını bildirib. Qeyd edib ki, üç gün ərzində Bakının bir çox tarixi məkanlarını, görməli yerlərini ziyarət edərək şəhərin gözəl və baxımlı olmasının şahidi olublar. 44 günlük Vətən müharibəsində əldə olunan Qələbənin Azərbaycan xalqı üçün nə qədər mühüm tarixi hadisə olduğunun şahidi olduqlarını vurğulayan Li Lei insanlardakı ruh yüksəkliyinin hər yerdə hiss edildiyini əlavə edib.

Dövlətlərarası münasibətlərin elm sahəsini də əhatə etdiyini bildirən çinli alim bu gün Kore Akademiyasının nümayəndə heyətinin Azərbaycan Milli Elmlər Akademiyasında olmasını ikitərəfli elmi əlaqələrin yeni mərhələyə qədəm qoymasının, münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin əlaməti kimi qiymətləndirib.

Professor vurğulayıb ki, bu gün imzalanacaq memorandum ikitərəfli elmi əməkdaşlığın genişləndirilməsinə gətirib çıxaracaq: "Biz bu gün Elmlər Akademiyasının müəssisələrini gəzərək orada yaradılan şəraitlə yaxından tanış olduq. Bir daha geniş əməkdaşlıq perspektivlərimizin mövcudluğunun şahidi olduq. Qarşılıqlı bilik və təcrübə mübadiləsi aparmaq üçün müştərək laboratoriya və ya mərkəz yaradılması barədə də düşünmək olar".

Çinli professor Azərbaycanda təkcə humanitar və ictimai elmlər sahəsində deyil, bərpa olunan enerji, "yaşıl energetika" və digər sahələrdə həyata keçirilən tədbirlərə də öz töhfəsini verməyə hazır olduqlarını vurğulayıb.

Honkonq Kore Akademiyasının Baş katibliyinin icraçı müavini prof. Raymond J. Wu isə öz növbəsində Kore Akademiyası haqqında ətraflı məlumat verib. Akademiyada multidisiplinar tədqiqatların aparıldığını deyən professor ölkəmizə səfərin AMEA ilə Honkonq Kore Akademiyası arasında yeni əməkdaşlıq imkanları açdığını söyləyib.

Sonra AMEA ilə Honkonq Kore Akademiyası arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi akademik İsa Həbibbəyli və professor Li Lei imzalayıblar. Memorandumda birgə elmi layihələrin, tədqiqat proqramlarının, konfransların, simpoziumların, seminarların, görüşlərin təşkili, elmi kadrların, nəşrlərin və əsərlərin mübadiləsi kimi müddəalar yer alıb.

Tədbirdə həmçinin akademik Dilqəm Tağıyevə Kore Akademiyasının həqiqi üzvlüyü diplomu və üzvlük nişanı təqdim edilib. Qeyd edək ki, Honkonq Kore Akademiyasının Rəyasət Heyətinin qərarı ilə bu elmi qurumun həqiqi üzvü seçilmiş akademik İsa Həbibbəyliyə isə həqiqi üzvlük diplomu və Akademiyanın üzvlük nişanı AMEA prezidentinin iyun ayında Çinə səfəri zamanı təqdim olunub.

Rəyasət Heyətinin iclasının sonunda akademik İsa Həbibbəyli Azərbaycan elminin inkişafında göstərdiyi xidmətlərə görə akademik Arif Həşimova AMEA-nın Fəxri fərmanını təqdim edib.

Sonda xatirə şəkli çəkdirilib.

## Kore Akademiyasının əməkdaşları Ədəbiyyat İnstitutunun Çin Tədqiqatları Mərkəzində



**Çin Xalq Respublikasının Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini prof. Raymond J.Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda olublar.**

Qonaqlar institutun nəzdində fəaliyyət göstərən Çin Tədqiqatları Mərkəzi ilə yaxından tanış olublar. Burada onlara bildirilib ki, Mərkəzin əməkdaşı Nərgiz Kərimova tərəfindən ölkəmizdə ilk dəfə olaraq Çin-Azərbaycan ədəbi əlaqələrinə həsr olunmuş fəlsəfə doktorluğu dissertasiyası müdafiə edilib. Həmçinin burada Çin dilinin tədris olunduğu diqqətə çatdırılıb.

Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri professor Bədirxan Əhmədov isə rəhbərlik etdiyi şöbədə Çin ədəbiyyatı, mədəniyyətinə dair aparılan tədqiqatlar barədə məlumat verib. Azərbaycan-Çin ədəbi əlaqələrinə dair kitabın hazırlandığını, çinli alimlərlə birgə konfransların keçirildiyini vurğulayıb.

Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei isə öz növbəsində Çin Tədqiqatları Mərkəzinin və Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin fəaliyyətindən razı qaldıqlarını bildirib, Ədəbiyyat İnstitutu ilə əməkdaşlıqda maraqlı olduqlarını söyləyib.

## Çinli alimlər Mərkəzi Elmi Kitabxanada



**Honkonq Kore Akademiyasının İcra şurasının üzvü professor Li Lei, Baş katibliyin icraçı müavini prof. Raymond J. Wu, Akademiyanın elmi əməkdaşları Feng Liu və Yan Zheng AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) qonağı olublar.**

Kitabxananın direktor müavini Oruc Quliyev MEK-in fəaliyyəti haqqında qonaqlara ətraflı məlumat verib. Bildirilib ki, hazırda MEK 46 ölkənin 127 təşkilatı, 80 elmi jurnalı, ölkəmizdəki bir sıra səfirliklər, Azərbaycanın xaricdəki səfirlikləri ilə əməkdaşlıq edir. Çin Milli Kitabxanası ilə əməkdaşlığın önəmi vurğulanaraq ədəbiyyatların, mənbələrin elektron versiyada MEK-ə göndərilməsinin əhəmiyyətinə də toxunulub.

Çinli alimlər daha sonra Mərkəzi Elmi Kitabxananın fondları, elektron kitabxanası ilə yaxından tanış olublar, sərgilərə baxış keçiriblər. Azərbaycan kitabxanalarındakı XVI əsrə aid ən qədim kitab nüsxəsinin məhz burada mühafizə edilməsi, digər tarixi nəşrlər, o cümlədən çin dilində olan ədəbiyyatlar qonaqların marağına səbəb olub.

# Aşıq Ələsgərin sənətinə və Vətəninə qayıdışının parolu

**Saz-söz sənətinin qüdrətli yaradıcısı Aşıq Ələsgərin Bakı şəhərinin görkəmli yerlərindən birində heykəlinin ucaldılması ölkəmizdə dövlət səviyyəsində ədəbiyyata və incəsənətə verilən yüksək qiymətin daha bir əməli ifadəsidir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu müdrik siyasətin müasir dövrdə böyük uğurla davam etdirilməsi xalqımızın milli-mənəvi varlığı qavrayışını, milli kimlik düşüncəsini daha da dərinləşdirib. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının təməl ədəbi abidəsi hesab edilən "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin, Aşıq Ələsgərin 150 illiyinin qeyd edilməsi istiqamətində ölkəmizdə və xaricdə həyata keçirdiyi tədbirlər milli soykökə qayıdış, azərbaycançılıq idealının qüvvətləndirilməsi kimi siyasi-ideoloji hədəflərin həyata keçirilməsinə xidmət etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud şəhərciyi salması ölkəmizin yeni nəsilləri üçün canlı vətənpərvərlik məktəbi yaratması kimi ali məqsədin həyata keçirilməsi deməkdir.**



Bundan başqa, Naxçıvanda və Qazax şəhərində ucaldılan Dədə Qorqud heykəlləri Azərbaycanın bu qədim torpaqlarına erməni iddialarına böyük sənətin dili ilə ifadə olunan cavabın ifadəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 18 may 2004-cü il tarixdə Avropanın mərkəzində - Brüssel şəhərindəki Ümumdünya Gömrük Təşkilatının baş iqamətgahının qarşısında Dədə Qorqudun heykəlinin açılışı mərasiminin keçirilməsi "Kitabi-Dədə Qorqud"un Azərbaycan ədəbi abidəsi kimi tanıdılması ilə bərabər, həm də gənc müstəqil dövlətimizin də təbliğ edilməsi baxımından əhəmiyyətli hadisədir. Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə Bakıda xalq qəhrəmanı Koroğluya heykəl qoyulması da çox mühüm müstəqil dövlətçilik və vətənpərvərlik hadisəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi Sərəncamı ilə 1921-ci ildə ölkəmizdə Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyinin geniş qeyd edilməsi aşıq sənətinin inkişaf etdirilməsinin müstəqillik dövründə də dövlətin diqqət mərkəzində olmasının göstəricisidir. Yubiley tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi, bu münasibətlə nəşrlərini yüksək keyfiyyət və kəmiyyət göstəricilərinə diqqət göstərilməsi Aşıq Ələsgər sənətinə yenidən qayıdışın reallıqlarını əks etdirir.

Müzəffər Ali Baş Komandanın iştirakı ilə 30 sentyabr 2024-cü il tarixdə Bakıda aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərin əzəmətli heykəlinin ucaldılmasının mühüm ictimai-siyasi və xüsusi ədəbi-mədəni əhəmiyyəti vardır. Əvvəla, Aşıq Ələsgərə paytaxtımızda heykəl qoyulması yenə də zəngin şifahi xalq ədəbiyyatımızın, aşıq yaradıcılığı ənənələrimizin canlandırılması yolu ilə yeni nəsillərdə milli-mənəvi özünüdərk proseslərini dərinləşdirmək məqsədi izləyir. Aşıq Ələsgərə ucaldılan heykəl Azərbaycanın aşıq sənətinin zirvəsini fəth etmiş ustad aşığın böyük xidmətlərinə dövlət səviyyəsində verilmiş yüksək qiymətin əməli ifadəsi kimi də əhəmiyyətlidir.

Prezident İlham Əliyevin nitqində Aşıq Ələsgərin abidəsinə həm də "bütün Azərbaycan xalqını... bir amal uğrunda birləşməyə dəvət edən hadisə" olaraq da yüksək qiymət verilmişdir. Ümumiyyətlə, aşıq sənətinə xas olan el-oba məclislərində xalqı öz ətrafında birləşdirmək qayəsinin bu gün Aşıq Ələsgərin Bakıdakı heykəlinin timsalında Birlik abidəsi kimi dəyərləndirilməsi aşıq sənətinin ümummilli idealları ilə müstəqil dövlətimizin müdrik siyasətinin nə qədər dərindən səsləşməsinin əyani təzahürüdür. Bundan başqa, Aşıq Ələsgərin Bakıdakı heykəli hazırda Azərbaycan Respublikasının siyasətində mühüm yer tutan Qərbi Azərbaycana qayıdış hərəkatının da əhəmiyyətli hadisəsidir. Aşıq Ələsgərin öz heykəli vasitəsilə Azərbaycanın paytaxtına gəlişi Ermənistan tərəfindən qədim Azərbaycan torpaqları olan Göyçədən və Vedibasardan, Zəngəzurdan və Dərələyəzdən zorla qovularaq, qaçqın düşmüş Qərbi azərbaycanlıların dədə-baba torpaqlarına qayıdışının paroludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də haqlı olaraq Aşıq Ələsgərin Bakı şəhərində heykəlinin ucaldılmasına mühüm ədəbiyyat və mədəniyyət hadisəsi olmaqla yanaşı, həm də Qərbi Azərbaycana qayıdış konsepsiyasının həyata keçirilməsi sahəsində əhəmiyyətli addım kimi də yüksək qiymət vermişdir: "Bildiyimiz kimi, Aşıq Ələsgər ömrü boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır, uzun ömür yaşamışdır və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi. 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından - Qərbi Azərbaycandan birinci deportasiyası idi. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. ...Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç il sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir".

Məlum olduğu kimi, Aşıq Ələsgərin şeirlərində Göyçə mahalının azərbaycanlıların dədə-baba torpaqları olmasına dair əhəmiyyətli fikirlər vardır. "Adım Ələsgərdi, Göyçə mahalım", yaxud "Adım Ələsgərdi, əslim göyçəli" - deyən böyük sənətkar əslinin-nəslinin də Göyçə mahalında yaşadığını bəyan etməklə bu ərazilərin qədim Azərbaycan torpağını olduğunu diqqətə çatdırır. Aşıq Ələsgərin şeirlərində Göyçə mahalının "bahar vaxtı yaz ayları gələndə, süsənli-sünbüllü, ...xəstə üçün təpəsində qar olan, çeşməsindən abi-həyat car olan", "möhnəti-məlalı dağıdan" əzəmətli dağları ilhamla tərənnüm olunmuşdur. Ustad aşıq Göyçə mahalını sazın-sözün də əsas ilham mənbələrindən biri olduğunu deməklə, Göyçə ədəbi mühitinin də çoxəsrlik ənənələrə malik olduğunu bəyan etmişdir. Bununla belə, Azərbaycan ədəbiyyatşünaslıq elminin, xüsusən folklorşünasların diqqət yetirdikləri bu təbiət motivləri Prezident İlham Əliyevin qiymətləndirməsindəki real siyasi çalarların işığında yenidən təhlil edilərək, özünün ictimai məzmunlu obyektiv elmi qiymətini almalıdır. Sovet dövründə, "beynəlmiləçi" ideoloji mühitdə, "erməni məsələsinin" Kreml tərəfindən müdafiə edilməsi şəraitində Aşıq Ələsgərin Kəlbəcər səfərindən yalnız qohumluq əlaqələri mənasında söz açılması o zamanın reallığını əks etdirirdi. Dövlət başçımızın Aşıq Ələsgərin həyatı və yaradıcılığın səciyyəvi detallarının ictimai-siyasi mahiyyətini açıb göstərməsi ustad sənətkarın ədəbi irsinə münasibətdə humanitar və ictimai elmlərin də dərinliklərə doğru inkişaf etdirilməsini tələb edir.

Bu zəmində Aşıq Ələsgərin səfərlərini əks etdirən dastan-rəvayətlərindəki hadisələr və simalar da yenidən təhlil edilib, senzurasız dövrün yaratdığı yeni imkanlar hesabına obyektiv elmi mövqedən dəyərləndirilməlidir. İndi Aşıq Ələsgərin nəsil şəcərəsi, dostları və əleyhdarları, ailə münasibətləri haqqında gerçək elmi söz deməyin tam zamanıdır. Bütün bunlar Aşıq Ələsgərin tərcümeyi-halının yenidən və elmi əsaslarla yazılmasını tələb edir. Bundan başqa, hesab edirik ki, Aşıq Ələsgərin dinə münasibəti, din xadimləri ilə əlaqələri də yenidən araşdırılmalıdır. Dünyəvi şairin səfərlərindəki bəzi ehyamlar və tənqidi notlar heç də onun ateist olmasını deməyə əsas vermir. Eyni zamanda, şeirlərindəki bəzi rəmzlərə və dini yönlü adlara və motivlərə istinad edərək haqq aşığını mömin bir dindar kimi qələmə vermək də doğru elmi yanaşma sayıla bilməz. Bu baxımdan Aşıq Ələsgərin ictimai baxışları və fəlsəfi görüşləri məsələsinə yenidən qayıtmağa ehtiyac vardır.

Aşıq Ələsgər lirikasının obrazlığı baxımından Azərbaycan aşıq poeziyasının Məhəmməd Füzulisidir. Məhəmməd Füzuli Azərbaycan və Şərq klassik poeziyasının inkişafında hansı rola və xidmətlərə malikdirsə, Dədə Ələsgər də Azərbaycan-Türk aşıq ədəbiyyatında eyni mövqeyə və təsir imkanlarına malikdir. Azərbaycanın baş Ozanı Dədə Qorquddan sonra müstəqillik dövrü ustad aşıqlarımıza qədər Azıq Ələsgərdən uca zirvə yoxdur. Ələsgər aşıq ədəbiyyatının nizamnaməsinin yaratmış mütəfəkkir aşıqdır. Aşıq Ələsgərin ən yaxşı qoşmaları, gəraylıları Azərbaycan aşıq ədəbiyyatının şedevrləridir. Qafqazda məşhur olan Aşıq Ələsgərin Türkiyədə və İranda da davamçıları və pərəstişkarları vardır.

Aşıq Ələsgər sənətində realizmdən yetərincə yazılmışdır. Zatən aşıq sənəti əsasən realist ədəbiyyat nümunəsidir. "Aşıq gördüyünü çağırar" - kimi müdrik kəlam aşıq ədəbiyyatının realist üslubda kökləndiyi və inkişaf etdiyini nümayiş etdirir. Xalq yazıçısı, akademik Mirzə İbrahimovun "Aşıq ədəbiyyatında realizm" kitabı bu həqiqəti elmi cəhətdən obyektiv şəkildə əks etdirir. Aşıq Ələsgər də sözün həqiqi mənasında realist sənətkardır. Bununla belə, Aşıq Ələsgərin şeirləri və eləcə də digər aşıqlarımızın yaradıcılığı romantik düşüncələrlə zəngin xəzinədir. Hətta Aşıq Ələsgərin dağlar və yaylaq şeirlərində də romantik düşüncələr öz əksini tapmışdır:

*Keçər ellər, düşər səndən aralı,*
*Firqətində gül-nərgizlər saralı,*
*Ələsgər Məcnun tək yardan aralı,*
*Gəzər səndə dərdli-nalalı dağlar.*

Əlbəttə, bu məqamda Aşıq Ələsgərin yaradıcılığında romantizm axtarılmamalıdır. Romantizm ədəbi cərəyanı ilə romantik düşüncəni və ya romantik tərənnümü heç cür eyniləşdirmək olmaz. Ümumiyyətlə, aşıqlar hər hansı ədəbi cərəyanın deyil, ümumxalq məclislərinin, el-oba cəmiyyətinin təmsilçiləridirlər. Ancaq onların da yaradıcı insan olaraq qayğısı, ağrısı, doğrusu olduğu kimi arzusu, niyyəti, gələcəyə baxışları da vardır. Aşıq Ələsgər sənətindəki romantik notlar onun yaradıcılığının realist mahiyyətinin daxili zənginliyinin poetik ifadəsidir. Bu mənada Aşıq Ələsgərin romantizmindən yox, şeirlərindəki romantikadan bəhs etmək aşığın yaradıcılığının cazibədarlığını və əlvanlığını göstərmək baxımından əhəmiyyətlidir.

Aşıq Ələsgərin heykəlinin ucaldılması bu böyük el sənətkarının şəxsiyyətinə və sənətinə ümumxalq mənbələrinin ifadəsidir. Aşıq Ələsgərin Göyçə mahalının Ağkilsə kəndindəki məzarüstü abidəsinin ermənilər tərəfindən vəhşicəsinə dağıdılması isə vandalların mənfur xislətinin daha bir təzahürüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda Aşıq Ələsgərin heykəlinin açılışı mərasimindəki nitqində də vandallığın, dağıdıcılığın, bədxahlığın ermənilərin yaramaz niyyətlərinin, qeyri-insani xüsusiyyətlərinin göstəricisi olduğu konkret faktlarla və Qarabağda törədilmiş vandalizm hadisələri ilə əlaqəli şəkildə diqqətə çatdırılmışdır: "Hamımız yaxşı bilirik ki, 1970-ci illərdə Ulu öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi qeyd edilmişdir... Bu yubiley münasibətilə doğma Ağkilsə kəndində onun abidəsi ucaldılmışdır. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda (1988-1990-cı illərdə - İ.H.) erməni vandalları onun abidəsini dağıtmışdılar. Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bu praktika yeni deyil, əsrlər boyu dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi".

Bir neçə kəlmə də Aşıq Ələsgərin Bakı şəhərində ucaldılan heykəli haqqında fikirlərimi ifadə etmək istəyirəm. Hesab edirəm ki, Bakı şəhərində Aşıq Ələsgərə ucaldılan heykəl bu böyük sənətkarın gerçək obrazının canlı ifadəsidir. Aşığın qəbul edilmiş zahiri görünüşü də, şeirlərindən öyrəndiyimiz daxili aləmi də Aşıq Ələsgərin heykəlində ana xətləri ilə öz əksini tapmışdır. Nəzərə almaq lazımdır ki, fotodan fərqli olaraq heykəldə daha çox sənətkar üçün ən çox səciyyəvi olan xüsusiyyətlərin əks etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Fikrimcə, Xalq rəssamı Natiq Əliyev Aşıq Ələsgərin tərcümeyi-halını, ömür və sənət yolunu, yaradıcılıq dünyasını yaxşı öyrənmiş və yaratdığı heykəldə bacarıqla canlandırmışdır. Heykəlin qranit postamentinin qaya parçası görüntüsündə təqdim edilməsi Aşıq Ələsgərin heykəlinə təbiilik, xalqa və doğma torpağa bağlılıq ruhu gətirmişdir. Heykəldə Aşıq Ələsgər sənətinin realizmi ilə romantikası vəhdətdə ifadə olunmuşdur. Aşıq Ələsgərin heykəldəki qürurlu qaməti, şax duruşu onun həyatdakı və xarakterindəki gerçək əyilməz ruhunu, dillənən telli sazı ilə qəlbində çağlayan romantik arzularını, düşüncələrini mənalandırır. Xalq rəssamı Natiq Əliyev ümumiləşdirilmiş aşıq obrazı yox, özünəməxsus saz-söz dünyası olan ustad Aşıq Ələsgərin obrazını yaratmağa müvəffəq ola bilmişdir. Heykəl üçün seçilmiş iki yolun qovşağı Aşıq Ələsgərin heykəlinin tamaşaçılarını artırmaqdan başqa, Göyçə mahalı ilə Kəlbəcər arasında qalan Aşıq Ələsgərin doğma Vətənin bütövlüyü mənasında ölkəmizin paytaxtı Bakıda arzularına qovuşduğunu əks etdirir. Prezident İlham Əliyevin aşağıdakı sözləri də Aşıq Ələsgər sənətinin Azərbaycan xalqının böyük rəğbətini və məhəbbətini qazanmasına verilmiş siyasi qiymətin ifadəsi kimi əhəmiyyətlidir. "Onun (Aşıq Ələsgərin - İ.H.) yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o görkəmli şəxsiyyət, vətənpərvər insan öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə, biz onun simasında xalqımızın yüksək ruhunu görürük".

Xalq rəssamı Natiq Əliyevin ucatdığı Aşıq Ələsgər heykəli cənab Prezidentin bəyan etdiyi görkəmli el sənətkarının yüksək vətənpərvərlik ruhunun tuncdan və qranitdən yoğrulmuş diqqətəlayiq abidəsidir. Aşıq Ələsgərin heykəlinin Bakıda ucaldılması da Prezident İlham Əliyevin dediyi kimi, "Qarabağ və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın əyilməz ruhunun" əyani ifadəsidir. Möhtərəm Prezidentimiz kimi xalqımız da əmindir ki, eyni ibrətamiz mənzərə Qərbi Azərbaycana qayıdış dövründə də canlanacaqdır.

Aşıq Ələsgərin Bakı şəhərindəki heykəli xalqımızın bu böyük sənətkarın ölməz sənətinə və ustad aşığın isə sözün geniş mənasında doğma vətəninə, ölkəsinə qayıdışının əməli ifadəsidir. Aşıq Ələsgərin Bakı şəhərindəki heykəli Qərbi Azərbaycana qayıdışın da paroludur. Bu heykəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyasının reallığıdır. Aşıq Ələsgərin heykəli Azərbaycan heykəltaraşlıq sənətinin yaddaqalan hadisəsidir.

**İsa HƏBİBBƏYLİ**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

*7 oktyabr 2024-cü il*

# Ankarada dahi Füzulinin zəngin irsinə həsr olunmuş tədbir

**Oktyabrın 9-da Ankaradakı Qazi Universitetində Azərbaycan ədəbi dilinin banilərindən biri, dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin zəngin irsinə həsr olunmuş simpoziumun açılışı olub.**



Bu, dahi Füzulinin 530 illik yubileyi çərçivəsində keçirilən növbəti mötəbər tədbirdir.

Simpoziumun açılışında alim, yazıçı və şairlərlə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov, Türk Mədəniyyətinin Tədqiqi İnstitutunun direktoru, professor Bican Ercilasun, Yunus Əmrə İnstitutunun direktoru, professor Abdurrahman Ali, Qazi Universitetinin rektoru Uğur Ünal iştirak ediblər.

Simpoziumu açan Türk Mədəniyyətinin Tədqiqi İnstitutunun direktoru Bican Ercilasun bildirib ki, Füzuli irsi ədəbiyyatın və fəlsəfənin zirvəsi olmaqla yanaşı, həm də Türk dünyasını birləşdirməyə davam edir.

"Heç bir şair məhəbbəti Füzulinin yaradıcılığında olduğu kimi tərənnüm edə bilməz", - deyən türkiyəli alim dahi şairin kəlamlarının dünyada həmişə milyonlarla insanın dillər əzbəri olduğunu vurğulayıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında Məhəmməd Füzulinin 530 illik yubileyinin təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında geniş qeyd edildiyini diqqətə çatdırıb. O əlavə edib: "Prezident İlham Əliyevin 25 yanvar 2024-cü il tarixli Sərəncamına uyğun olaraq dünyanın bir çox ölkələrində dahi mütəfəkkirin yubileyi ilə bağlı çoxsaylı tədbirlər keçirilir".

İsa Həbibbəylinin sözlərinə görə, dahi Azərbaycan şairi Füzulinin adı haqlı olaraq dünya ədəbiyyatının şah əsərlərinin müəllifləri ilə bir sırada çəkilir. "Öz əhəmiyyətinə görə Füzulinin qəzəllərini ancaq Şekspirin əsərləri ilə müqayisə etmək olar", - deyən AMEA-nın prezidenti qeyd edib ki, şairin yaradıcılığında dilin gözəlliyi, qafiyə quruculuğu heç bir şairin irsi ilə müqayisə oluna bilməz.

"Füzulinin adı Azərbaycan tarixində həm doğma Azərbaycan dilində, həm də ərəb və fars dillərində ədəbi əsər nümunələrinin müəllifi kimi əbədi olaraq qalacaq. Başqa belə bir şair yoxdur", - deyən İsa Həbibbəyli sözlərinə davam edərək "Şikayətnamə", "Leyli və Məcnun" və Füzulinin digər əsərlərini, qəzəllərini söz sənətinin ölməz abidələri adlandırıb.

Onun sözlərinə görə, hələ şairin sağlığında hər biri haqlı olaraq türk ədəbiyyatının incisi olan əsərləri İstanbul, Təbriz, Daşkənd və Türk dünyasının digər iri şəhərlərində məşhur olub. "Füzuliyə bütün dünyada hörmətlə yanaşırlar. Füzuli yaradıcılığı tarixin sınağından çıxıb və əsrlər boyu yaşayacaq", - deyən AMEA prezidenti dahi şairin yaradıcılığından bəhs edən kitabı Qazi Universitetinə hədiyyə edib.

Daha sonra çıxış edən Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov simpoziumun təşkilatçılarına minnətdarlığını bildirib. Diplomat xatırladıb ki, bu gün Azərbaycanın rayonlarından biri Füzulinin adını daşıyır. "Uzun illər ölkəmizin bu hissəsi işğal altında olub. Tarixin ən çətin dövrlərində belə Azərbaycan Füzulini unutmayıb. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyev hələ 1994-cü ildə Füzulinin 500 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb", - deyə səfir bildirib.

Diplomatik nümayəndəliyin rəhbəri türk xalqlarını öz tarixi-mədəni irsini daim xatırlamağa və ona hörmət etməyə çağırıb.

Tədbir alimlərin və ədəbiyyatşünasların Füzuli irsi mövzusunda çıxışları ilə davam edib.

Simpoziumun işinə oktyabrın 10-da yekun vurulub.

# Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının nümayəndəsi ilə görüş



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində ölkəmizdə səfərdə olan Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının (IAP) nümayəndəsi Dr. Robin Fears ilə görüşüb.**

Görüşdə çıxış edən akademik İsa Həbibbəyli Azərbaycanın COP29 kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etməsinin tarixi hadisə olduğunu deyib və Bakı İqlim Fəaliyyəti Həftəsinin COP29-a hazırlıq üçün mühüm mərhələlərdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, bu konfrans vasitəsilə Akademiya ölkəmizə səfər edən dünyanın tanınmış və nüfuzlu alimləri ilə geniş əlaqələr qurmaq, əməkdaşlıq etmək imkanı əldə edir.

Qonağa Akademiyanın yaranma tarixi və fəaliyyət istiqamətləri barədə məlumat verən akademik İsa Həbibbəyli dövlət başçısının müvafiq Fərmanı ilə ölkəmizdə elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirildiyini, AMEA-nın artıq öz tərkibində humanitar və ictimai elmləri, eləcə də seysmologiyanı cəmləşdirdiyini söyləyib. Bundan əlavə, AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri, Kimya Elmləri, Yer Elmləri, Biologiya və Tibb Elmləri kimi bölmələrinin də fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Qeyd edib ki, AMEA-nın elmi bölmələrinin fəaliyyət istiqamətləri çərçivəsində "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-a həsr olunmuş konfranslar keçirilib, iqlim dəyişmələrinə dair geniş müzakirələr keçirilib.

AMEA rəhbəri yaxın günlərdə isə Humanitar və İctimai Elmlər bölmələrinin təşkilatçılığı ilə növbəti konfransın keçiriləcəyini, "yaşıl dünya" və iqlim dəyişmələri ilə bağlı tarixçi, filosof, ədəbiyyatşünas, folklorşünas alimlərimizin baxışlarının müzakirə olunacağını vurğulayıb.

Akademik İsa Həbibbəyli qonağa, həmçinin AMEA-nın beynəlxalq əlaqələri barədə geniş məlumat verib və bildirib ki, Akademiya son 2 ildə tarixində ilk dəfə olaraq nüfuzlu beynəlxalq təşkilatlara üzv seçilib. Qeyd edib ki, AMEA Beynəlxalq Elmi Şuranın, eləcə də Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının, son olaraq da Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının səsvermə hüququna malik tamhüquqlu üzvü seçilməklə dünya elmində gedən proseslərdə yaxından iştirak edir.

AMEA rəhbəri Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər sahəsində IAP-la əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

Görüşdə çıxış edən IAP nümayəndəsi Dr. Robin Fears AMEA-da olmaqdan məmnunluğunu dilə gətirib, COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin dünyadakı nüfuzunu daha da artırdığını deyib. AMEA-da keçirilən "Yaşıl dünya" və COP29-a həsr olunmuş konfransları təqdir edən IAP rəsmisi, xüsusilə bu istiqamətdə humanitar və ictimai elmlər sahələrini təmsil edən alimlərin iqlim dəyişmələrinə baxışının fərqli yanaşma olduğunu bildirib.

Dr. Robin Fears Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının 4 regional bölməsinin fəaliyyət göstərdiyini, öz tərkibində 150-yə yaxın milli, regional və qlobal akademiyaları, 30 mindən artıq alim, mühəndis və tibb mütəxəssisini bir araya gətirdiyini, elm, təhsil, sağlamlıq, enerji və digər sahələrdə qlobal problemlərin həllinə dair dövlətlərə, ictimaiyyətə elmi məsləhətlər təqdim etdiyini vurğulayıb. Qeyd edib ki, IAP dünyanın aparıcı elmi mütəxəssislərinin təcrübəsini birləşdirərək elmdə, təhsildə mükəmməlliyin təbliğini və digər mühüm inkişaf məqsədlərinə nail olmağı hədəfləyir.

Qonaq, həmçinin bioelmlər sahəsində apardığı tədqiqatlar barədə danışıb.

Görüş zamanı birgə layihələrdə iştirak məsələsi də geniş müzakirə olunub.

Daha sonra akademik İsa Həbibbəyli qonağa hədiyyələr təqdim edib.

Dr. Robin Fears AMEA Rəyasət Heyətinin binası ilə tanış olub, xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, görüşdə AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva da iştirak ediblər.

# Enerjinin saxlanması və çevrilməsi üçün materiallar üzrə VIII beynəlxalq simpozium

**AMEA-nın Kimya Elmləri Bölməsi və Elm və Təhsil Nazirliyinin Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun birgə təşkilatçılığı ilə Enerjinin saxlanması və çevrilməsi üçün materiallar üzrə VIII beynəlxalq simpozium keçirilib.**





Tədbiri açan Bölmənin Elmi şurasının sədri, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru akademik Dilqəm Tağıyev beynəlxalq simpoziumun bu il Bakıda keçirilməsinin rəmzi xarakter daşıdığını bildirib. Akademik 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" olmasından və ölkəmizin COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməsindən danışıb. Vurğulayıb ki, bu gün qlobal problemlərdən biri enerji ilə bağlıdır. Dünyada bərpaolunan enerjiyə dair bir çox tədqiqatlar aparılır. İnstitutun baş direktoru tədbirdə müzakirəyə çıxarılan məsələlərin elmin inkişafına töhfələr verəcəyinə əminliyini bildirib.

Sonra çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycanda bərpaolunan enerji (külək və günəş) mənbələrindən istifadənin sürətlə artdığını diqqətə çatdırıb. Akademik müxtəlif elm sahələrində yaşıl enerji, yaşıl iqtisadiyyat, yaşıl kimya, yaşıl layihələr kimi yeni anlayışların meydana gəldiyini, yeni istiqamətlər ortaya çıxdığını qeyd edib.

AMEA rəhbəri "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində akademiyada silsilə tədbirlərin təşkil olunduğunu, müzakirələr aparıldığını, alim və ziyalılarımızın aktual elmi problemlərin həllində yaxından iştirak etdiklərini diqqətə çatdırıb.

Tədbirdə Orta Doğu Texniki Universitetinin professoru Tayfur Öztürk əlaqələrin genişləndirilməsi, ümumi maraq doğuran məsələlər üzrə fikir və təcrübə mübadiləsinin aparılması baxımından beynəlxalq simpoziumun elmi əhəmiyyətini qeyd edib. Professor bərpaolunan enerji mənbələrinin mənimsənilməsi kimi məsələlərə toxunulacaq tədbiri mühüm platforma kimi yüksək dəyərləndirib.

Sonra çıxış edən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Əminağa Sadıqov alternativ enerji mənbələrinin tətbiqi və istifadəsinin getdikcə daha çox aktuallıq kəsb etdiyini söyləyib. O, çıxışında Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun böyük elmi potensialı olduğunu da qeyd edib.

AMEA-nın akademik-katibi, Fizika İnstitutunun baş direktoru akademik Arif Həşimov bərpaolunan enerji mənbələrindən istifadənin mövcud vəziyyəti, yarana biləcək problemlər və gözləntilər haqqında məlumat verib. Akademik Azərbaycanda bərpaolunan enerji mənbələri ilə bağlı mühüm işlər görüldüyünü vurğulayıb. Alim elmi simpoziumun Azərbaycan iqtisadiyyatına töhfələr verəcəyinə əminliyini ifadə edib.

Tədbir işini plenar iclaslarla davam etdirib.

# Görkəmli şərqşünas, unudulmaz şəxsiyyət

*Professor Aida İmanquliyevanın 85 illik yubileyinə həsr olunmuş elmi konfrans*



**Oktyabrın 10-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın 85 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.**

AMEA-nın Əsas binasının Akt zalında keçirilən konfransı giriş sözü ilə AMEA-nın akademik-katibi akademik Arif Həşimov açıb. Azərbaycan şərqşünaslıq elminin inkişafında professor Aida İmanquliyevanın böyük rolu olduğunu qeyd edən akademik Arif Həşimov alimin şərqşünaslıq elmində ərəbşünas-ədəbiyyatşünaslar məktəbinin əsasını qoyduğunu vurğulayaraq, ərəb məhcər ədəbiyyatının tədqiqi sahəsində elmə böyük töhfələr verdiyini bildirib. Professor Aida İmanquliyevanın yubileyinə həsr olunmuş konfransı yüksək dəyərləndirən akademik Arif Həşimov tədbirin işinə uğurlar arzulayıb.

Sonra məruzələrə başlanılıb. AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva konfransda "Görkəmli şərqşünas, unudulmaz şəxsiyyət" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın dərin nəzəri bilikləri, yüksək erudisiyası, geniş mütaliəsi, bir neçə şərq və qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərləri qısa bir vaxt ərzində ona nəinki keçmiş Sovetlər Birliyində, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirib.

Aida İmanquliyevanın Azərbaycanda Şərq-Qərb qarşılıqlı əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk alim olduğunu deyən akademik alimin çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezinin, yaradıcı üslubun inkişafının və yeni bədii üslubun təşəkkül tapmasının tədqiq olunduğunu, onun hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürərək mədəni tərəqqini şərtləndirən amillərə istinad etdiyini qeyd edib.

Aida İmanquliyevanın ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayəndələrinin yaradıcılığını araşdırdığını deyən akademik G.Baxşəliyeva alimin onların yaradıcılıq metodunu, dünya görüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi, müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq etdiyini, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini tam aşkar etdiyini, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirdiyini vurğulayıb.

Aida xanımın çox zəhmətkeş və özünə qarşı həddindən ziyadə tələbkar bir insan olduğunu deyən akademik onun hər bir əsərinin uzun illərin gərgin, gecəli-gündüzlü böyük zəhmətinin bəhrəsi olduğunu diqqətə çəkib.

Aida İmanquliyevanın elmi-təşkilati, pedaqoji fəaliyyətindən, tərcümələrindən, nüfuzlu beynəlxalq elmi tədbirlərdə Azərbaycan şərqşünaslıq elmini layiqincə təmsil etməsindən danışan akademik G.Baxşəliyeva Aida xanımın həssas, xeyirxah insan olduğunu, şəxsi keyfiyyətləri və dərin elmi biliklərinin ona həmkarları arasında böyük hörmət və sevgi qazandırdığını qeyd edib.

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı dosent Aydan Xəndan "Əzəliyyətdən əbədiyyətə axan nur" - Aida İmanquliyeva ziyası", AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin baş elmi işçisi filologiya elmləri doktoru Bəsirə Əzizəliyeva "Görkəmli şərqşünas-alim Aida İmanquliyeva", Şərqşünaslıq İnstitutunun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü "Aida İmanquliyeva və klassik Azərbaycan ədəbiyyatı" və Şərqşünaslıq İnstitutunun Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru, dosent Fərda Əsədov "Aida İmanquliyevanın pedaqoji təcrübəsindən: Suriya-Amerika məhcər ədəbiyyatının həyat fəlsəfəsi dəyərlərinin aşılanması" mövzularında məruzələr ediblər.

Daha sonra çıxışlar olub, görkəmli alim Aida İmanquliyeva haqqında xatirələr səsləndirilib.

# AMEA Yer Elmləri Bölməsinin alimi Stenford Universitetinin dünyanın ən nüfuzlu alimlərinin reytinqi siyahısında

**2019-cu ildən başlayaraq hər ilin oktyabr ayında ABŞ-ın Stenford Universiteti World's Top 2% Scientists - dünyanın ən nüfuzlu alimlərinin reytinq siyahısını dərc edir. Reytinq siyahısı dünyanın ən böyük akademik nəşriyyatı olan və baş ofisi Amsterdam şəhərində yerləşən "Elsevier" şirkətinin "Scopus" bazasının bir il əvvəlki məlumatları əsasında tərtib edilir**



2024-cü ilin 17 sentyabr tarixində dərc edilən siyahıya Azərbaycan alimlərində daxil edilmişdir. Bu reytinq siyahısında ölkəmizi təmsil edən 13 alimdən biri AMEA-nın Yer Elmləri bölməsinin üzvüdür. Qürurverici haldır ki, 2023-cü il üzrə World's Top 2% Scientists reytinq siyahısına SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun neft və qazın hasilatı üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Bağır Süleymanov və onun tələbəsi "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Analitik tədqiqatlar" laboratoriyasının müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru Elçin Vəliyevin adlarıda daxil edilmişdir. Qeyd etmək istərdik ki, siyahıda Azərbaycandan olan alimlərin sırasında Bağır Süleymanov birinci yerdə göstərilib.

Stenford Universiteti illik dərc edilən reytinq siyahısı ilə paralel alimlərin elmi fəaliyyəti üzrə 1996-ci ildən cari ilədək olan reytinq siyahısı da təqdim edir. 1996-2023-cü illəri əhatə edən World's Top 2% Scientists reytinq siyahısında Bağır Süleymanov və Elçin Vəliyevində adları qeyd edilmişdir. Bu siyahıda Azərbaycandan cəmi 5 alim yer almışdır.

# Ədəbiyyat İnstitutu Beynəlxalq kitab sərgisində mükafatlandırılıb

**Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş 10-cu Bakı Beynəlxalq kitab sərgisi yekunlaşıb.**

Bir həftə davam edən kitab sərgisinin bağlanış mərasimində müxtəlif nominasiyalar üzrə təltiflər təqdim edilib.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu sərginin "Ən yaxşı kitab" nominasiyası üzrə qalib olub. İnstitutun nəşr etdiyi "Füzuli kitabxanası" seriyası 10-cu Beynəlxalq Bakı kitab sərgisinin "Ən yaxşı kitab"ı seçilib.



Xatırladaq ki, "Füzuli kitabxanası" seriyası Ədəbiyyat İnstitutunda AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin baş redaktorluğu, tanınmış füzulişünas alim, filologiya elmləri doktoru Ataəmi Mirzəyevin məsul redaktorluğu ilə yaradılıb. "Füzuli kitabxanası" seriyasından Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı", Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", Məmməd Cəfər Cəfərovun "Füzuli düşünür", Ataəmi Mirzəyevin "Füzulinin "Tərcümeyi-hədisi-ərbəin" əsəri", Stanislava Plyaskovitska-Rımkeviçin "Məhəmməd Süleyman oğlu Füzuli", Aynur Mahmudun "Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər)", Sevinc Ağayevanın "Məhəmməd Füzulinin anadilli divanının leksik tərkibi: Azərbaycan mənşəli arxaizmlər" və Mehriban Mövlamovanın "Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı" kitabları nəşr olunub.

# Şərqşünas alim, professor Aida İmanquliyevanın xatirəsi anılıb



**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi oktyabrın 10-da görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 85-ci ildönümündə alimin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı üzərinə əklil qoyub.**

AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva çıxış edərək professor Aida İmanquliyevanın şərqşünaslıq elminə böyük töhfələr verdiyini, Azərbaycanda ərəbşünaslıq üzrə ilk filologiya elmləri doktoru kimi bu sahənin inkişafında böyük xidmətləri olduğunu deyib.

Dünya şöhrətli şərqşünaslarla bir sırada adı çəkilən Aida İmanquliyevanın Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu bildirən akademik G.Baxşəliyeva onun əsərlərinin dönə-dönə oxunulduğunu, təhlil və tədqiq edildiyini, tərcümə olunduğunu, yenidən işıq üzü gördüyünü vurğulayıb.

Görkəmli alimin həyatdan erkən getməsinin onun həmkarlarını və tələbələrini hədsiz kədərləndirdiyini və sarsıtdığını qeyd edən natiq Aida İmanquliyevanın əziz xatirəsinin onların qəlbində əbədi yaşayacağını bildirib.

Anım mərasimində iştirak edən AMEA-nın Qadınlar Şurasının İdarə Heyətinin üzvü Zərifə Quliyeva Aida İmanquliyevanın müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, yeni bir məktəbin əsasını qoyduğunu deyərək, onun Azərbaycan şərqşünaslığının inkişafına böyük töhfələr verdiyini söyləyib.

# Beynəlxalq konfransda kompüter şəbəkələrinin kibertəhlükəsizliyinin monitorinqi ilə bağlı aparılan tədqiqatların nəticəsi müzakirə olunub

**AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev və baş elmi işçisi, texnika üzrə fəlsəfə doktoru, dosent Ramiz Şıxəliyevin həmmüəllifi olduqları "Kompüter şəbəkələrinin kibertəhlükəsizliyinin CNN-LSTM modeli əsasında monitorinqi" ("Computer networks cybersecurity monitoring based on CNN-LSTM model") adlı məruzə "İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi" üzrə 18-ci IEEE beynəlxalq konfransında (The 18th IEEE International Conference Application of Information and Communication Technologies) təqdim olunub.**




Konfransda məruzəni R.Şıxəliyev təqdim edərək kompüter şəbəkələrinin kibertəhlükəsizliyinin intellektual monitorinqinin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, kompüter şəbəkələrinin artan miqyası, mürəkkəbliyi və məlumat axını ənənəvi monitorinq metodları üçün ciddi problemlər yaradır ki, bu da kibertəhlükəsizlik insidentlərinin vaxtında aşkarlanmasını çətinləşdirir. Məqalədə bu kimi problemlərin həlli üçün CNN-LSTM (Convolutional Neural Networks-Long Short-Term Memory) hibrid modelinin istifadəsi təklif olunub.

R.Şıxəliyev aparılan eksperimentlər nəticəsində bu hibrid modelin minimal hiperparametr tənzimləməsi ilə kibertəhlükəsizlik insidentlərini yüksək dəqiqliklə aşkarladığını və təsnif edildiyini vurğulayıb. Bildirib ki, əldə olunan nəticələr dərin təlim modellərinin kompüter şəbəkələrində kibertəhlükəsizlik insidentlərinin aşkarlanmasında və təsnif edilməsində böyük potensiala malik olduğunu göstərir.

Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb, suallar cavablandırılıb.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI - 80

# Əsrə bərabər Azərbaycan elmi

**Azərbaycan elmi ictimaiyyəti Milli Elmlər Akademiyasının yaradılmasının 80 illik yubileyi ərəfəsindədir. 27 mart 1945-ci il Azərbaycan Respublikasının müasir elm tarixində mühüm mərhələnin - Elmlər Akademiyasının təsis olunduğu gün kimi yaddaşlarda yaşamaq haqqı qazanıb. Səksən il bir igidin ömrü, insan oğlunun müdrik çağı, kamillik zirvəsi sayılacaq həyat və elmi yaradıcılıq yoludur. Elmdə isə bu uzun və şərəfli yolu keçən azərbaycanlı ziyalı nəsillər, indi böyük minnətdarlıq hissi ilə yad olunurlar. Akademiya boyda nəhəng elm ocağında yetişən Azərbaycan alimləri müxtəlif sahələrdə professioanl və akademik mühitin inkişafı, həmçinin formalaşmasında yaxından iştirak etmiş, fəaliyyətlərini yeni simalar uğurla davam etdirirlər. Bu səbəbdən, əsrə bərabər Azərbaycan elmini yüzillikdən, cəmi iyirmi il ayırır. Respublikada elə bir sahə yoxdur ki, orada elm öz sözünü deməsin. Təməlində elmi-nəzəri biliklərin olmadığı sahənin praktik əhəmiyyəti isə uzun müddət fayda verə bilməz.**



XX əsr Azərbaycan elmi-ictimai fikrinə yön verən, milli elmi kadrların hazırlanmasında akademiyanın xidmətləri ölçüyəgəlməz dərəcədə əhəmiyyətli olmuşdur. İllər ötmüş, Azərbaycan Elmlər Akademiyası ittifaq respublikaları ilə əlaqələr qurmuş, elmi-texniki, ədəbi, mədəni mübadilə yolu ilə xalqlar arasında dostluq münasibətləri inkişaf etmişdir. Akademiyanı Azərbaycan xalqının gözündə ucaldan digər mühüm məsələ, müstəqillik uğrunda xalqın yolunu işıqlandıran, mayaka çevrilmiş ziyalı sözünə, alim əməyinə göstərilən böyük ehtiram olmuşdur.

Əsrə bərabər bu uzun yol ittifaq dövründən başlamış, 1991-ci ildə dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan elmində yeni mühüm mərhələnin başlanğıcı kimi yaxın tarixə çevrilmişdir. Ötən 33 il milli elmin həqiqi mənada inkişaf dövrü olub, yeni və perspektiv alim nəsillərin, müasir intellektual təbəqənin yetişməsində mühüm amilə çevrilib.

Bir qədər əvvələ qayıdaq - Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin 1923-cü ildən başlatdığı ciddi elmi axtarışlar, 1929-cu ildən fəaliyyətə başlayan Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu, ardından 1932-ci ildə yaradılmış SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi, nəhayət 25 oktyabr 1935-ci ildə həmin şöbənin bazasında mərkəzi elmi qurumla əlaqəli çalışacaq Azərbaycan filialı, respublikada yaradılacaq Elmlər Akademiyasının təməlini təşkil edəcək qədər, o dövr üçün mühüm hadisəyə çevrilmişdir. Azərbaycan elminin şöhrətlənməsi yolunda ilk carçılar kimi, həmin qurumlar bir-birini əvəz edərək, nəhəng bir elm məbədinin, Azərbaycan Elmlər Akademiyasının həyata vəsiqə qazanmasında müstəsna rola malik olmuşlar. Şöbədən filial statusuna yüksələn qurumda elmin bir sıra sahələrində əsaslı tədqiqatlara başlanmış və qısa zaman kəsiyində Azərbaycanda - dəqiq, təbiət, ictimai, humanitar sahələrdə araşdırmalara onlarla alim cəlb olunmuşdur. Tarix, coğrafiya, geologiya, neft, kimya, dil, ədəbiyyat kimi mühüm istiqamətlərdə, gələcək institutlar həmin dövrdə ilk addımlarını atmış, sonralar elmin müxtəlif sahələri üzrə müstəqil elmi-tədqiqat institutları fəaliyyətə başlamış və milli elmin təməl inkişafında əhəmiyyətli rol oynamışlar. Sonralar Akademiyanın elmi-tədqiqat institutlarına iqtisadiyyat, botanika, zoologiya, müstəqillik illərində - kibernetika, energetika, informasiya texnologiyaları, molekulyar biologiya, biotexnologiya, qafqazşünaslıq kimi sahələrdə araşdırmalar aparan institutlar yaradılmışdır.

Azərbaycan SSR Elmlər Akademiyasının ilk prezidenti Mirəsədulla Mirqasımovdan Həsən Abdullayevə və bu günə qədər akademiya uzun və şərəfli yol keçmişdir. Akademiyanın genişlənərək, respublikanın Naxçıvan daxil olmaqla əsas bölgələrində bölmə və elm mərkəzlərinin təsis edilməsi isə Azərbaycanda elmi inkişafın bütün regionları əhatə etdiyini göstərir. Ardından, Azərbaycan elmini insanlara əyani şəkildə, eksponatlarla - tarix, geologiya, biologiya və s. sahələrdə izah edən akademiya nəzdində muzeylərin təsis edilməsi və Şamaxı Astrofizika Rəsədxanasının yaradılması isə Elmlər Akademiyasının Azərbaycan xalqı üçün maariflənmə qədər, yüksək bynəlxalq elmə inteqrasiya baxımından ciddi hadisəyə çevrilmişdir. Yüksək intellektual təbəqənin rəhbərliyi dövründə Azərbaycan elmi tərəqqi edərək, hazırda akademik İsa Həbibbəylinin rəhbərliyi ilə milli elmimiz dünya miqyasında öz layiqli yerini tutmaq üçün, müasir dövrün tələblərinə cavab verən elmi islahatlar keçirir. Bu səbəbdən, XXI əsrdə Azərbaycanda sosial-iqtisadi inkişafın qarantına çevrilən elm bütün sahələrdə nailiyyətlərə səbəb yaradır.

Respublikada neft kimyası sahəsində akademik Yusif Məmmədəliyevin, paleontologiyada akademik Musa Əliyevin, akademik Zahid Xəlilovun fizika-riyaziyyat, yarımkeçiricilər fizikası sahəsində tanınmış akademik Həsən Abdullayevin, akademik Ziya Bünyadovun tarix elmi sahəsində göstərdikləri xidmətlər Azərbaycan elminin şöhrətini hər tərəfə yaymışdır. 49 il bundan əvvəl, 1975-ci ildə "Xalqlar dostluğu" ordeni ilə təltif olunması, Azərbaycan Elmlər Akademiyasının ittifaq respublikaları arasında ön sıralarda durduğunu təsdiq edirdi. Belə anlamlı təltifə layiq görülən respublikanın bir nömrəli elm ocağı, həmin dövrdə yeni elmi reallıq yaratmış və elmi əlaqələrini genişləndirmişdir.

Hazırda müstəqil əsaslarda fəaliyyət istiqamətlərini təkmilləşdirən Azərbaycan Respublikasının elm məbədi üçün, suverenliyin ilk illəri çətinliklərlə yadda qalmışdır. Hətta akademiya bağlanmaq təhlükəsi ilə də üzləşmişdir. Belə mürəkkəb vəziyyətə baxmayaraq, respublikanın tanınmış ziyalılarının iradəsi bu işin önünə keçmiş, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin qətiyyətli mövqeyi Azərbaycan elmini bu bəladan qurtarmışdır. Ümummilli Liderin 15 may 2001-ci il tarixli Fərmanı ilə akademiyaya "Milli Elmlər Akademiyası" statusu verilmişdir. Mövcud sənəd respublikada elmi biliklərin yayılması və biliklər cəmiyyətinin dinamik inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Dövlət başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" 4 yanvar 2003-cü il tarixli Fərmanı, qurumun struktur layihəsinin hazırlanmasına həsr olunmuşdur. Bu baxımdan, sənəd akademiyanı qorumaqla qalmamış, gələcək fəaliyyətinin daha da genişlənməsi və inkişafına öz töhfəsini vermişdir. AMEA-nın 60, 70 illik yubileylərindən irəli gələn dövlət sərəncamları və proqramlar respublikada yeni elmi inkişafın təməlini qoymuş, Azərbaycan elmi dünya miqyasında irəliləmiş, beynəlxalq əlaqələrini gücləndirmişdir. Dövlət başçısının 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan Ensiklopediyası akademiyanın tabeçiliyinə verilmiş, digər sərəncama əsasən, 5 may 2004-cü ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi ərsəyə gətirilmişdir.

Akademiyanın beynəlxalq elmi əlaqələrində 2013-2015-ci illər xüsusilə yadda qalmışdır - Türkiyə, Rusiya, İngiltərə, Almaniya, Fransa, Polşa, İsrail, Çin, Bolqarıstan, Yaponiya, Koreya ilə əlaqələrdə yeni elmi perspektivlər yaranmış və əməkdaşlıq müqavilələri imzalanmışdır. Adı çəkilən ölkələrin elm və beyin mərkəzləri ilə həmçinin, təhsil sahəsində də münasibətlər qurulmuş, rəsmi görüşlər, müzakirələr gerçəkləşdirilmişdir. Hazırda AMEA-nın qeyd olunan ölkələrlə elm, təhsil və mədəni əlaqələri bir qədər də inkişaf edərək əməkdaşlıq üçün yeni imkanlar yaranmışdır.

2013-cü ildə AMEA-da keçirilən mühüm islahatlar sırasında elm və təhsilin vəhdətini yaradan ali təhsilin magistr pilləsinə qəbul proqramına hazırlıq, ingilis dili imtahanlarının keçirilməsində müasir metodlardan istifadə olunması, ali elm ocağının müasir dövrün tələbləri ilə uzlaşdığını və yeni, faydalı ideyaların tətbiq olunmasının müsbət nəticələr verdiyini təsdiq edir. Gənc alimlərin Prezident təqaüdünə layiq görülməsi və akademiyanı digər qurumlarda təmsil edərək yüksək mükafatlarla təltif olunması Azərbaycanda elm və təhsilin paralel əməkdaşlığına əlverişli şərait yaradıldığına bir nümunə ola bilər.

2014-cü ildə ilk dəfə AMEA-nın marşı səsləndirilmiş və sözləri elmi-ictimaiyyət tərəfindən böyük rəğbət qazanmış, gəncləri elmi-tədqiqata və tərəqqiyə səsləmişdir. Azərbaycan elmi üçün 2014-cü ili əlamətdar edən mühüm səbəblərdən biri, 11 dekabrda akademiya nizamnaməsinin Prezident İlham Əliyev tərəfindən imzalanması olmuşdur. Humanitar elmlərin ictimai elmlərdən ayrılaraq müstəqil bölmələrdə fəaliyyətini davam etdirməsi isə hər iki sahədə produktivliyi artırmışdır. 2014-cü ilin 9-10 noyabr tarixlərində akademiyanın və ümumilikdə Azərbaycan elmi ictimaiyyətinin həyatında mühüm tədbirin - "Fizika və lirika: dünya təcrübəsi və Azərbaycan reallığı" mövzusunda keçirilən Bakı Elm Festivalı və Azərbaycan alimlərinin, ziyalıların ilk forumu dünyanın aparıcı elm mərkəzlərində geniş əks səda doğurmuşdur.

Prezident İlham Əliyevin 2015-ci ildə akademiyanın 70 illik yubileyi tədbirində çıxış edərək Azərbaycan elmi-ictimaiyyəti qarşısında qoyduğu yeni vəzifələr - elmi-tədqiqat işlərinin müxtəlif istiqamətlərdə inkişaf edərək ölkənin sosial-iqtisadi, mədəni tərəqqisinə və yeni beynəlxalq elmi əlaqələrin, əməkdaşlığın yaranmasına təkan vermişdir. Xüsusilə tarix sahəsində, Azərbaycanın çoxəsrlik tarixində İrəvan və Qarabağla bağlı kompleks tədqiqatlar yerinə yetirilmiş, xeyli işlər görülmüşdür. II Vətən müharibəsindən sonra AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda ilk dəfə "Qərbi Azərbaycan tarixi" şöbəsinin yaradılması mövcud istiqamətdə tədqiqatlara istiqamət vermiş, dövrü araşdıran alimlərin məqalə və monoqrafiyaları nəşr olunmuşdur.

Azərbaycan Respublikasında tarix üzrə yegana beyin mərkəzi - Tarix və Etnologiya İnstitutu akademiyanın təməlinin qoyulduğu 1923-cü ildən bu günə qədər tarix, arxeologiya, etnoqrafiya, antropologiya, numizmatika kimi mühüm istiqamətlərdə tədqiqatlar apararaq görkəmli tarixçi-alim nəslinin, elm xadimlərinin yetişməsində mühüm rol oynamışdır. 1935-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı nəzdində müstəqil Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılmışdır. Respublikanın ideoloji fikir tarixində institutun fəaliyyət istiqamətləri az əhəmiyyət daşımamışdır. Xüsusilə son otuz ildə Tarix və Etnologiya, eləcə də Arxeologiya və Antropologiya İnstitutları elmi tədqiqat işlərinə vətənpərvər, istedadlı gəncləri cəlb edərək yeni tarixçilər nəslinin yetişməsinə öz töhfələrini vermişlər.

Son illər akademiyanın elmi əlaqələrinin yüksəlməsində xaricdə yaşayan azərbaycanlı alimlərlə əlaqələrin qurulması, Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi ilə yanaşı AMEA-da da böyük maraqla izlənir. AMEA-nın dünya şöhrətli alimlərlə əlaqələrinin qurulması, fəxri üzvlük yolu ilə tanınmış elm xadimlərilə əməkdaşlıq əlaqələrinə əhəmiyyətli təsir göstərir ki, nəticədə beynəlxalq elmi mübadilə, həmçinin geniş müzakirələr üçün mühit formalaşdırmış olur. Fəxri üzvlər arasında həmyerlimiz, qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyələrinin yaradıcısı, professor Lütfi Zadə də var. Böyük alim 2008-ci ilin noyabr ayında AMEA-nın fəxri üzvü diplomu ilə təltif edilmişdir. Alimin dünya elm tarixinə verdiyi töhfə, müasir dövrdə insanların sosial həyatının yaxşılaşdırılmasına xidmət edən vacib amillərdən biridir.

II Vətən müharibəsindən ötən 4 il akademiyada milli elmin yeni inkişaf və islahatlar mərhələsi kimi, keyfiyyətcə yeni fazaya keçid etmiş, elmi inteqrasiya üçün perspektivlər yaranmışdır. Azərbaycan dövlətinin dünyanın müxtəlif regionları ilə yanaşı, türk respublikaları ilə diplomatik-siyasi, iqtisadi, mədəni münasibətləri paralel olaraq elmi əlaqələrin inkişafına əsas yaratmışdır. 2023-cü ilin 29 noyabrında AMEA-nın fəxri üzvü seçilən, biokimya sahəsində Nobel mükafatına layiq görülən professor Əziz Səncərlə 3 iyun 2024-cü ildə akademiyada keçirilən görüş məhsuldar olmuş, "Əziz Səncər şərəf otağı"nın açılışı baş tutmuşdur. Bununla yanaşı, akademiya prezidenti akademik İsa Həbibbəylinin türk dövlətlərinin elmi dairələri ilə Bakıda və xarici səfərlərdə keçirdiyi görüşlər AMEA-nın beynəlxalq əlaqələrində Mərkəzi Asiya regionu ilə elmi-mədəni münasibətlərə dinamizm qatmışdır. Akademiyanın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d., dosent Əzizağa Ələkbərlinin keçən il işıq üzü görmüş "Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri (1920-1991)" mövzulu monoqrafiyası bu baxımdan son 71 ildə respublikanın türk dövlətləri ilə elmi-texniki, mədəni, ədəbi əlaqələrinə həsr olunmuş və gərgin axtarışların nəticəsində qələmə alınmış ilk samballı monoqrafiyadır. Tədqiqat işini maraqlı edən mühüm cəhətlərdən biri, arxiv materiallarına geniş yer verilməsidir.

Təhsil və elm yaşadığımız cəmiyyətlərin gələcəyini müəyyən edən mühüm faktor kimi sosial-iqtisadi, mədəni inkişafın göstəricisidir. Elmi ixtiralar, tədqiqatlar bəşəriyyətə sülh və əminamanlıq gətirdiyi kimi, onun əksinə də tarixdə rast gəlmək mümkündür. XXI əsr elmi-texniki tərəqqi dövrü olub xalqların rifahının yüksəlməsinə əhəmiyyətli təsir göstərməlidir. Bu baxımdan, əsrə bərabər Azərbaycan elmi ötən 79-80 il ərzində fundamental, ictimai və humanitar sahələrdə tərəqqi edərək, regional, həm də beynəlxalq əlaqələrini genişləndirmiş, respublikada ziyalı nəsillər yetişmişdir. Respublikada elm siyasətini uğurla həyata keçirən Azərbaycan Milli Elmlər Akademiyası xalqın milli və mənəvi dəyərlərinin qorunması, milli inkişafdan davamlı inkişafa doğru uzun yol qət edərək, ömrünün 80 illik müdrik çağına yetişmişdir. Bu yollar hər zaman hamar olmasa da yolun sonu, bizi müstəqil və qalib Azərbaycan Respublikasının Cənubi Qafqaz regionunda yaratdığı sülh və əməkdaşlıq reallığına çatdırmışdır.

**Aqil ƏHMƏDOV**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent**

YENİ NƏŞRLƏR

## "Türkologiya" jurnalının yeni nömrəsi

**"Türkologiya" beynəlxalq elmi jurnalının 2024-cü il üçün 1-ci sayı çap olunub. Türkologiya" jurnalının bu nömrəsi Mahmud Kaşğari "Divanü lüğat-it-türk" - 950 illiyinə həsr edilmişdir.**




Jurnalda akademik İsa Həbibbəylinin "Mahmud Kağarinin "Divanü lüğat-it-türk " əsəri Azərbaycanda", professor Nadir Məmmədlinin " Mahmud Kaşğarinin kimliyi və "Divanü lüğat-it-türk"ün yazıldığı dövr, akademik Möhsün Nağısoylunun "Divanü lüğat-it-türk" və "Kitabi-Dədə Qorqud"un Günbəd əlyazması ilə müqayisəli tədqiqi" adlı məqalələr , həmçinin Azərbaycan,Türkiyə, Özbəkistan və Makedoniya alimlərinin müxtəlif məqalələri dərc olunmuşdur.

Fərqli elmi-nəzəri biliklərin türkologiya müstəvisində təqdim edən jurnalımızın bu sayındakı "Divanü lüğat-it-türk"- 950, "Klassik irs", "Dil əlaqələri", "Dialektologiya", "Personalia" , "Elmi həyat", "Nekroloq" rubrikalarıı oxucular üçün maraqlı olacaq.

Jurnalın baş redaktoru Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, məsul katibi filologiya elmləri doktoru Aysel Qəriblidir.

## Mahmud Kaşğari "Divan"ı və çağdaş türk dilləri"

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri professor İsmayıl Kazımovun Mahmud Kaşğari "Divan"ı və çağdaş türk dilləri" kitabı işıq üzü görüb.**




"Elm və təhsil" nəşriyyatında çap olunan kitabın redaktoru professor Nadir Məmmədli, filologiya elmləri doktoru Şəbnəm Həsənli-Qəribova və dosent Qətibə Quliyevadır.

Kitabda böyük türkoloq Mahmud Kaşğarinin "Divan" ında sözün fonetik, qrammatik, leksik-semantik yöndə tarixi-genetik və struktur-funksional xüsusiyyətləri nəzərdən keçirilib.

Kitabda "Divan"ın türkoloji dilçiliyin formalaşması və inkişafındakı rolu, çağdaş türk dillərinə, dialektlərinə təsiri öyrənilib.

Mahmud Kaşğari "Divan"ı və Çağdaş Türk dilləri" kitabı 3 bölmədən ibarətdir. Bölmələrdə "Divan"ın fonetik, leksik və morfoloji özəllikləri araşdırılıb.

## Malayziya jurnalında Urmiya gölü hövzəsindəki ekoloji böhrandan yazılıb

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kiçik elmi işçisi Asim Cənnətovun məqaləsi "Web of Science" bazasına daxil olan Malayziyanın "Jebat" Tarix, Siyasət və Strateji Araşdırmalar jurnalında dərc olunub.**



"Urmiya gölü hövzəsindəki ekoloji böhranın Yaxın Şərqə təsirinin analizi" adlı məqalədə dünyada mövcud su ehtiyatlarının və göllərin hər birinin təsərrüfat üçün yararlı olmasa da, onların qorunub saxlanmasının ekoloji fəlakətlərin qarşısının alınmasında olduqca həlledici rol oynadığını yazan müəllif, təəssüflə qeyd edir ki, bir çox ölkələrdə su mənbələri ciddi şəkildə qorunub saxlanılmır və süni amillər nəticəsində quruma təhlükəsi ilə üzləşir. Belə göllərdən biri də İranda Şərqi və Qərbi Azərbaycan əyalətləri arasında yerləşən Urmiya gölüdür.

Bu araşdırmanın başlıca məqsədi gölün quruma səbəblərini aşkar etmək, regionda yarana biləcək təhlükələri proqnozlaşdırmaq və həll yolları tapmaqdır.

# Bədii sözün ən yüksək nöqtəsi

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi, f.e.d. Nəzakət Məmmədlinin "Füzulinin "Leyli və Məcnun" əsəri: poetikası, fəlsəfəsi, əlyazmalarının mətnşünaslıq xüsusiyyətləri" adlı kitabı Elmi Şuranın qərarı ilə "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur. Kitabın elmi redaktoru f.e.d., professor Azadə Musayeva, rəyçisi f.e.d. Paşa Kərimlidir.**

Kitabın girişində birbaşa Füzulinin "Leyli və Məcnun" əsərindən söz açan müəllif əsəri "bədii sözün ən yüksək nöqtəsi" hesab edir, mütəsəvviflərin fikirlərinə istinadən əsərə öz münasibətini bildirir, bəzi sözlərin, o cümlədən "Məcnun" sözünün mənasını açıqlayır, Cəlaləddin Rumidən sitat verərək, mütəsəvviflərin "ilahi həqiqətləri ifadə etmək üçün "divanəlik (məcnunluq)" anlayışından bir vasitə kimi istifadə etdiklərini" vurğulayır, mürəkkəb poetik məcazlarla zəngin Şərq şeirində yalnız əhli-halın anlayacağı məqamların təhlilinin çətinliyini və məsuliyyətini qeyd edir, görkəmli ədəbiyyatşünas Bəxtiyar Məmmədzadənin çox dəyərli fikrini sitat verərək, öz fikrini tamamlayır: "Məhz bu amilləri nəzərə alaraq biz təhlil zamanı mətnin maksimum dürüstlüyünü təmin etmək məqsədilə ən etibarlı əlyazma nüsxələrini müqayisəli şəkildə araşdıraraq tədqiqata cəlb etmişik. Poetik təhlil yüksək bəlağət və fəsahəti təmin edən təsvir və ifadə vasitələrinin bolluğu, demək olar ki, hər bir sözün bədii mexanizmin bir detalı kimi çıxış etdiyini, bədii vasitələrin irfani ideyanın ifadəsinə xidmət etdiyini gördükdə əsərə kompleks yanaşmanın vacibliyini bir daha anlayırıq".




Əsərin "Füzulinin "Leyli və Məcnun" əsərinin poetikası" adlı I fəslində sözünə "Füzuliyə görə hər bir insan dünyanın və insanın nə üçün xəlq olunduğunu, özünün və aləmin yaranmasının məqsədini anlamağa çalışmalıdır" fikri ilə başlayan tədqiqatçı əsərin şərhini verir, saqidən, şərabdan, meyi-müğandan, sufilərin geyimindən, danışır, Rumi ilə müqayisə aparır, əsəri təsəvvüf ədəbiyyatının nümunəsi kimi təhlilə çəkir. Leyli ilə Məcnunun görüşündə hüsn və eşq anlayışını açmağa çalışan müəllif Əhməd Qəzalinin əsərindən bir hekayənin nəqlini verir, yenidən Füzuli sözünə qayıdaraq, Məcnunun vəziyyətini şərh edir.

Məcnunun əzab-əziyyətli eşq mülkünü salamat əql mülkündən üstün tutduğunu, Məcnunun eşqdə sabitqədəmliliyini, aşiqliyin Məcnunun zati xüsusiyyəti, ilahi eşqin Məcnunun missiyası olduğunu qeyd edən tədqiqatçı təkcə əsərin məzmunu ilə kifayətlənmir, hər örnək verdiyi parçanı şərh edərkən, həm də bədii təsvir və ifadə vasitələrinindən bəhs edir, Füzuli sözünü, əsərin poetikasını oxucuya maksimum yüksək səviyyərə çatdırmağa çalışır.

Füzulinin Leylisinini tərifində də biz bunu görürük. Leylinin çıraqla söhbətindən, pərvanəyə Haqq aşiqi kimi baxmasından və onu özü ilə müqayisə etməsindən, eləcə də Leylinin Ayla, Səba küləyilə söhbətindən danışan müəllif eyni qayda ilə poetik məqamları açıqlayır, şərhlərdə bədii vasitələrdən bəhs edir. Təbii ki, bu Füzuli sözüdür, burada olduqca dərin məqamlar, sözaltı mənalar var, Füzulidə bəzən söz bir neçə mənada işlədilir və bunu anlamaq, sözün hansı mənada işləndiyini tapmaq, sözü seçə bilmək şərhçidən güclü savad , həm də zəngin məlumatlılıq tələb edir. Nəzakət xanım bu işin öhdəsindən layiqincə gələ bilir.

Burada Məcnuna nisbətən Leylinin tərifinə daha çox yer verildiyini görürük. Ümumiyyətlə, məqsəd əsərdə sadəcə Məcnunu və Leylini tərif etmək deyil, burada daha ali məqsəd vardır. Leyli-Məcnun məhəbbətini açıqlayan örnəkləri şərh edən tədqiqatçı yazır: "Burada söhbət Leyli və Məcnundan getsə də,əslində şair Leyli və Məcnun misalında Hüsn və Eşq vəhdətinə işarə edir. Füzuli yaradıcılığında Hüsn və Eşq anlayışları bir-birini tamamlayır, vəhdət təşkil edir. Füzuliyə görə Hüsn və Eşq bir-birinə düz mütənasibdir. Hüsn cahanı göstərən bir aynadırsa, Eşq bu aynanı cilalayaraq onun aləmi göstərmək qabiliyyətini üzə çıxarmışdır". Daha sonra Hüsn və Eşqin təsəvvüfdəki anlamından söz açılır, Quranın "Ət-Tin" surəsinin şərhi verilir.

Əsərin II fəsli "Füzulinin "Leyli və Məcnun" əsərinin fəlsəfəsi" adlanır. "Füzulinin "Leyli və Məcnun" əsərində təsəvvüfi rəmz və məcazlar və onların bədii ifadəsi" adlanan I hissədə hüsnün iki növü və Füzuli yaradıcılığında hər iki növün vəhdəti qeyd edilir. Füzuli qəhrəmanının Tanrı hüsnü, onun camalının gözəllikləri və Tanrının yaratdığı bəşəri gözəllikləri özündə təcəssüm etdirdiyi qənaətinə gələn müəllif əsasən mütəsəvviflərin fikirlərinə istinad edir. Burada bir çox təsəvvüfi məqamların, rəmzlərin açılışını görürük.

"Təsəvvüf " Leyli və Məcnun" əsərinin ideya istiqaməti kimi" adlı II hissədə əsərin "təsəvvüflə bağlılığı barədə ədəbiyyatşünaslıqda bir çox fikirlərin mövcud olduğu" lakin sovet tədqiqatçılarının onu feodal gerçəkliyini ifadə edən əsər kimi qələmə verdikləri qeyd edilir. Düzdür, sovet dönəmində bir çox əsərlər bu cür təhlil olunurdu. Füzuli əsərinin təsəvvüf ədəbiyyatı nümunəsi olduğunu qəbul etməsəm də, Nəzakət xanımın Füzulisinə hörmətlə yanaşıram. Füzuli arif idi, sufi deyildi. Sadəcə, bizdə ürfanla təsəvvüfi eyni müstəvidə götürürlər. Mən görə isə ürfan təsəvvüfdən yuxarıda dayanır və Füzuli əsərini ürfan ədəbiyyatı nümunəsi kimi qəbul edirəm. Amma mən bu yazımda öz Füzulimdən deyil, Nəzakət xanımın Füzulisindən danışıram və Nəzakət Məmmədlinin təsəffüf ədəbiyyatını gözəl bildiyinə heç şübhəm yoxdur...

Əsərin "Leyli və Məcnun" əsərinin əlyazmalarının mətnşünaslıq xüsusiyyətləri" adlı III fəslində Füzuli tədqiqatçılarından Türkiyəli Əli Nihad Tərlanın əsər haqqındakı fikrini verən, akademik Həmid Araslının 1958-ci il nəşri Azərbaycanda ən yaxşı çap nüsxəsi hesab edildiyini vurğulayan, rus şərqşünası Y.E.Bertelsin fikrinə münasibətini bildirən müəllif Əlyazmalar İnstitutunda "Leyli və Məcnun" əsərinin 20-dən artıq əlyazma nüsxəsi olduğunu qeyd edir.

Nəzakət Məmmədli institutdakı 6 nüsxə əsasında müqayisəli tədqiqat apardığını bildirir və müqayisəli təsvirini verir.

"Əlyazmaya əlavə edilən hissələr"dən söz açan tədqiqatçı bəzi məqamlara aydınlıq gətirir.

"Sevdayinin "Leyli və Məcnun" əsəri və onun Füzulinin eyniadlı əsəri ilə əlaqəsi" adlı yazı maraq doğurur. Sevdayi əsərindən hissələrin Füzuli əlyazmalarına qarışmasından bəhs edən müəllif Gibbin, Agah Sirri Ləvəndin Sevdayi haqqında məlumat verdiyini, Zübeydə Yaşarın Sevdayi Divanını nəşrə hazırladığını qeyd edir və heyrət içində bildirir ki, Agah Sirri Ləvəndin yazdığına görə Füzulinin əsərində bir çox hissələr Sevdayi əsərində də vardır.

Nəzakət Məmmədli Füzulidən əvvəl yaşayıb-yaratmış Sevdayinin "Leyli və Məcnun" əsərini ilk dəfə olaraq müasir əlifbaya çevirib nəşrə hazırladığını da oxuculara çatdırır və həmin əsərdən bir hissəni təqdim edir.

"Çap mətnləri və müxtəlif əlyazma nüsxələri arasında fərqli xüsusiyyətlər"dən söz açan tədqiqatçı nüsxələrdən nümunələr verərək dəyərli müqayisələr aparır, fərqləri və fonetik dəyişiklikləri qeyd edir.

"Respublika Əlyazmalar İnstitutunda saxlanılan "Leyli və Məcnun" əlyazmaları" adlı yazıda bütün əlyazmaların təsviri, arada miniatürlər verilmişdir.

Sonda geniş nəticə, istifadə edilmiş ədəbiyyat və C-192/9146 şifrəli əlyazmanın fotofaksimilesi təqdim edilmişdir.

Əsər üzərində böyük zəhmət çəkən, illərin əziyyətinə qatlaşıb ortaya samballı əsər qoyan görkəmli ədəbiyyatşünas, mətnşünas Nəzakət Məmmədlini bu uğuru münasibətilə təbrik edir, ona yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

**Sona XƏYAL**
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi**

*AMEA Mətbuat xidmətinin məlumatı*

# AMEA-nın, yoxsa AMEA prezidentinin müşaviri?



**Sosial şəbəkələrdə AMEA-nın müşavirləri ilə əlaqədar yayılan xəbərlərə aydınlıq gətirmək üçün bildiririk ki, adları çəkilən akademik Telman Əliyev 2020-ci ildən, akademik Yaqub Mahmudov və akademik Möhsün Nağısoylu 2021-ci ildən, akademik Adil Qəribov isə 2022-ci ildən AMEA-nın müşaviri vəzifəsində çalışırlar. Həmin alimlər sosial şəbəkələrdə səhv olaraq AMEA-nın deyil, AMEA prezidentinin müşavirləri kimi təqdim olunublar. Halbuki təsdiq edilmiş ştat cədvəli üzrə AMEA prezidentinin bir nəfər müşaviri vardır ki, o da informasiya texnologiyaları və Akademiyanın iştirak etdiyi elm sahəsinə aid dövlət proqramlarının icrası məsələləri ilə məşğul olur.**

Bu günlərdə AMEA-nın müşavirləri ilə əlaqədar hər hansı yeni təyinat olmamışdır.

Yuxarıda adları qeyd olunan şəxslərin yeni vəzifəyə təyin olunmaları ilə bağlı yayılan yanlış xəbərlərə cavab olaraq bildiririk ki, oktyabrın 1-də AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri və Yer Elmləri bölmələrinin "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-a həsr olunmuş "Yaşıl enerji və süni intellekt" mövzusunda keçirilən birgə elmi konfransında hazırda AMEA-nın müşavirləri kimi çalışmaqda davam edən akademiklərə AMEA rəhbərliyi tərəfindən müvafiq istiqamətlər üzrə tapşırıqlar verilib.

Məlumat üçün xatırladırıq ki, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2007-ci il tarixli Sərəncamı ilə Azərbaycanda elmi məktəblərin qorunub saxlanılması, görkəmli alimlərin təcrübələrindən yaradıcı şəkildə istifadə edilməsi, yeni elmi nəsillərin onların nümunələrində yetişdirilməsi məqsədi ilə yuxarı say həddi 10 nəfərdən çox olmamaqla, Azərbaycan Milli Elmlər Akademiyasının akademiklərindən ibarət müşavirləri vəzifəsi təsis edilmişdir. Keçən illər ərzində AMEA-nın müşaviri vəzifəsində müxtəlif vaxtlarda Azərbaycan elminin tanınmış nümayəndələri çalışıblar. Akademik Nəriman Quliyev (1926-2014), akademik Toğrul Şahtaxtinski (1925-2010), akademik Bəkir Nəbiyev (1930-2012), akademik Musa Musayev (1921-2010), akademik Asəf Nadirov (1929-2014), akademik Cəmil Quliyev (1927-2010), akademik Ağamusa Axundov (1932-2015) və başqaları Akademiyanın müşaviri kimi fəaliyyət göstərmişlər. Mövcud əsasnamənin tələblərinə görə Akademiyanın müşavirləri olan akademiklər əsasən təqaüdə çıxdıqdan sonra Akademiyada elmi məsləhətçi funksiyalarını yerinə yetirir, Akademiyanı təmsil edir, konkret elm sahələri üzrə müəyyən tapşırıqları həyata keçirir, əsasnamələrin və mühüm qərarların hazırlanmasına cəlb edilir, doktorantların hazırlanması işi ilə məşğul olurlar.

Dünyanın bir çox Akademiyalarında da həmin elmi təşkilatın müşavirləri vəzifəsi vardır.

***4 oktyabr 2024-cü il***

## NOBEL MÜKAFATI LAUREATLARI - 2024




### *Fiziologiya və tibb*

**Fiziologiya və tibb sahəsində Nobel mükafatı laureatlarıının adları açıqlanıb.**

Tədbirdə amerikalı alimlər Viktor Ambros və Qeri Ruvkunun 2024-cü il üzrə fiziologiya və tibb sahəsində Nobel mükafatına layiq görüldükləri elan edilib. Onlar bu mükafata mikroRNT-nin kəşfi və onun posttranskripsiya gen tənzimləməsində rolunun tədqiqinə görə layiq görülüblər.




### *Fizika*

**2024-cü il üzrə Fizika sahəsində Nobel mükafatına layiq görülən alimlərin adları açıqlanıb.**

Nobel Komitəsi oktyabrın 8-də ABŞ-ın Prinston Universitetindən Con Hopfild və Kanadanın Toronto Universitetindən Ceofrey Hintonun 2024-cü il üzrə Fizika sahəsində Nobel mükafatına layiq görüldüklərini elan edib. Onlar bu mükafata süni neyron şəbəkələri ilə maşın öyrənməsinə imkan verən kəşflər və ixtiralara görə layiq görülüblər.




### *Kimya*

**2024-cü il üzrə kimya sahəsində Nobel mükafatına layiq görülən alimlərin adları açıqlanıb.**

